**NAXÇIVAN MUXTAR RESPUBLİKASININ**
**NAZİRLƏR KABİNETİ**

# Q Ə R A R

**Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin "Naxçıvan Muxtar Respublikasının dövlət büdcəsindən maliyyələşən idarə və təşkilatların büdcədənkənar vəsaitləri haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" 2022-ci il 29 sentyabr tarixli 189 nömrəli Qərarında dəyişiklik edilməsi və "Naxçıvan Muxtar Respublikasında yol-nəqliyyat hadisələri ilə bağlı ümumi xilasetmə fəaliyyətinin təşkili Qaydaları"nın təsdiq edilməsi haqqında" 2022-ci il 1 mart tarixli 47 nömrəli, "Naxçıvan Muxtar Respublikasında ətraf mühitin çirkləndirilməsinə görə ödənişlərin tətbiqi haqqında" 2022-ci il 16 sentyabr tarixli 184 nömrəli, "Naxçıvan Muxtar Respublikasında strateji ekoloji qiymətləndirmənin aparılması Qaydası"nın təsdiq edilməsi haqqında" 2022-ci il 3 oktyabr tarixli 190 nömrəli və "Naxçıvan Muxtar Respublikasında dövlət və bələdiyyə tərəfindən yaradılan tibb müəssisələrinin Nümunəvi Nizamnaməsi"nin təsdiq edilməsi haqqında" 2023-cü il 3 fevral tarixli 40 nömrəli qərarlarının ləğv edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 134-cü maddəsinin IV hissəsini və Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 39-cu maddəsinin I hissəsinin yeddinci abzasını rəhbər tutaraq Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Naxçıvan Muxtar Respublikasının dövlət büdcəsindən maliyyələşən idarə və təşkilatların büdcədənkənar vəsaitləri haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2022-ci il 29 sentyabr tarixli 189 nömrəli Qərarının 1-ci hissəsi ləğv edilsin.

2. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin aşağıdakı qərarları ləğv edilsin:

2.1. "Naxçıvan Muxtar Respublikasında yol-nəqliyyat hadisələri ilə bağlı ümumi xilasetmə fəaliyyətinin təşkili Qaydaları"nın təsdiq edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2022-ci il 1 mart tarixli 47 nömrəli Qərarı;

2.2. "Naxçıvan Muxtar Respublikasında ətraf mühitin çirkləndirilməsinə görə ödənişlərin tətbiqi haqqında" Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2022-ci il 16 sentyabr tarixli 184 nömrəli Qərarı;

2.3. "Naxçıvan Muxtar Respublikasında strateji ekoloji qiymətləndirmənin aparılması Qaydası"nın təsdiq edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2022-ci il 3 oktyabr tarixli 190 nömrəli Qərarı;

2.4. “Naxçıvan Muxtar Respublikasında dövlət və bələdiyyə tərəfindən yaradılan tibb müəssisələrinin Nümunəvi Nizamnaməsi”nin təsdiq edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2023-cü il 3 fevral tarixli 40 nömrəli Qərarı.

3. Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikasının**
**Baş naziri** **Ceyhun Cəlilov**

Naxçıvan şəhəri, “5” mart 2025-ci il

№ 10